Təhsil naziri Misir Mərdanov konfransla bağlı çıxış etmək üçün sözü nazirliyin İqtisadiyyat şöbəsinin müdiri Şahrza Əliyevə verib. Ş.Əliyev bildirib ki, 27-29 oktyabr tarixlərində keçirilən bu konfransda dünyanın 31 ölkəsindən 112 iştirakçı təmsil olunub. Ş.Əliyev konfransda müxtəlif ölkələrin təhsil nazirlərinin, təhsil nazirlikləri əməkdaşlarının, universitet rektorlarının və Dünya Bankı mütəxəssislərinin iştirak etdiyini qeyd edib. Konfransın əhatə etdiyi məsələlərdən söz açan şöbə müdiri tədbirin giriş, plenar və qrup sessiyalarından ibarət olmaqla iki gün davam etdiyini, ali təhsilin maliyyələşdirilməsi, ali təhsil müəssisələrinin xərcləri, iqtisadi böhranın ali təhsilə təsiri və digər bu kimi mövzular üzrə müzakirələr aparıldığını vurğulayıb.

Ş.Əliyev konfransda dünyanın müxtəlif ölkələri nümayəndələrinin "Ali təhsilin maliyyələşdirilməsində ədalət, keyfiyyət və effektivlik necə təmin edilməlidir?","Çilidə ali təhsilin maliyyələşdirilməsi", "Xərclərin bölüşdürülməsi", "Litvada ali təhsil islahatları-2009" və digər mövzularda təqdimat-məruzələrin dinlənildiyini, eləcə də ali təhsilin maliyyələşdirilməsi ilə bağlı müqayisəli məsələləri diqqətə çatdırıb.

Sonda bu konfransdan əldə edilən nəticələrin ali təhsilin maliyyələşdirilməsi istiqamətində mühüm əhəmiyyəti olacağı qeyd edilib və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.